# Ali Rəhbər Həzrət Zəhranın (s.ə) şəhadətinə həsr olunmuş matəm mərasimində iştirak etdi - 3 /Jan/ 2022

İslam İnqilabının Ali Rəhbərinin iştirakı ilə İmam Xomeyni (r.ə) adına hüseyniyədə Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadət gecəsinə həsr edilmiş birinci matəm mərasimi keçirildi.

Mərasimdə çıxış edən Höccətül-İslam vəl-müslimin Sədiqi Allah yolunda ölmək və şəhid olmaq şövqünün ilahi övliyalara xas olan xüsusiyyətlərdən olduğunu dedi: “Şəhidlik ixlaslı bəndələr üçün məqsədə nail olmaq və Allaha qovuşmaqdır. İnqilabın ən böyük qələbəsi Əmirül-möminin (ə) və Siddiqeyi-Kubra (s.ə) məktəbində şəhid Süleymani kimi şəhidlik arzusunda olan misilsiz şagirdlər yetişdirib tərbiyə etməkdir”.

Mərasimdə cənab Cəfər Fərdi Allah kəlamından ayələr və Səid Həddadiyan isə mərsiyə və rövzə oxudu.

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**